## Türkiyədə G20 etirazlarla müşayiət olunur




Türkiyənin Antalya şəhərində keçirilən G 20 zirvəsi zamanı etiraz aksiyası keçirilib.

**"Dalğa TV"**nin anspress-ə istinadən məlumatına görə, bir qrup tələbə sammitin keçiriləcəyi yerə yürüş etmək istəyib. Tələbələr dünya liderlərinə yazılan məktubu oxuyublar. Daha sonra həmin məktubu liderlərə təqdim etmək üçün sammit bölgəsinə yürüş ediblər.

Polislər etiraz edən qrupun qarşısını alıb. Etirazçılar daha sonra oturaq aksiyaya başlayıblar. 20 dəqiqəyə yaxın davam edən aksiyada 4 nəfər polis tərəfindən saxlanılıb.